kaspi.-2017.-24-29 iyun.-S.18.



WWW.KASPI.AZ



## Arzu Rüstəm

### HARDA QALDI

Bax dağıldı aramızın bəndi də,
Uzaq düşdü vüsalının fəndi də.
Acı dadır o günlərin qəndi də,
Harda qaldı şirin-şirin sevməyin?

Söylə necə dözəcəkdir bu bəndə,
Aşiq oldu kəmən atdı bu bəndə.
Göz yumuram sevənləri görəndə,
Harda qaldı şirin-şirin sevməyin?

Xatirələr öləziyir, köz düşür,
Addım-addım yolun üstdən göz düşür.
Gileyimlə aramızda söz düşür,
Harda qaldı şirin-şirin sevməyin?

### SƏN OLMASAYDIN

Günəşə bənzəməz hər işıq saçan,
Donar ürəyimin qapısın açan.
Qaçıb cəhənnəmin qapısınacan,
Yandırıb yaxardım sən olmasaydın...

Hərdən gözlərimin ahına yaxıb
Hərdən şimşəkləri köksümə taxıb.
Bütün günahları ovcuma yığıb
Buluddan sıxardım sən olmasaydın...

Ay məni qoparıb məndən çıxaran,
Sağaldı mənimlə de hansı yaran.
Susqun baxışlarla səndən dəm vuran,
Özümdən baxardım sən olmasaydın...

### GÖZLƏRİNƏ...

Qismət olar adlayarsan yüzü də
Zaman keçir sevilməli zamandır.
Onlar görür əyrini də, düzü də
Gözlərinə yalan demə, amandır!

Bəlkə bir gün olarsan çox pərişan
Qızın gəlin köçər, oğlun evlənər
Qoxlayıb telini külək yerinə
Dənli kirpiyinin yaşı da dinər...

Əsər qocalığın dəli küləyi
Qucub sarılmağa bədən tapılmaz.
Səhərlər kölgəni günəş qamçılar
Gecələr üstünü örtən tapılmaz.

Ölümlə öpüşər daş dodaqların
Əllərin titrəyər telində qadın.
Ölürəm kəlməsi canından çıxar
"Sevirəm" dirilər dilində qadın...

### SEVƏSƏN

Diz bükülə eşq havası bel əyə,
Aşiq olub düz ilqarı sevəsən.
Ürəyinə ağrı düşməsin deyə,
İki bölüb yarı-yarı sevəsən.

Güneyinə quzey demək çox çətin,
Qarşında dağlar duranda mətin.
Ətəyində köçün sala, həsrətin,
Günəş olub dağda qarı sevəsən.

Xuda qıymaz, qamətini dərd əyə,
Sarı simi kökləyərsən pərdəyə.
Əllərində qəlbim təki titrəyə,
Könül adlı yoxu-varı sevəsən.

Nəğmə ola dilləndirə büsbütün,
Dodağında ömür barı sevəsən.
Səcdəsində qul olasan bu bütün,
Sinəsində kaman-tarı sevəsən.

### ƏZİZDİR

Alovunda dilim-dilim sürünən,
Gülzarında həlim-həlim kürünən.
Dərəsinə  xalıtəki bürünən,
O dağların çəni mənə əzizdir...

Yoxluğunda soyuqlayıb donduğum,
Zirvəsinə qartal təki qonduğum.
Xəyalımda heykəl təki yonduğum,
O çağların Səni mənə əzizdir...

Sanmayıram səndən özgə var kimsəm,
Cuşa gəlib cövlan eylər dəmi-dəm.
Lal olaram haqdan gəlib deməsəm,
O sağların təni mənə əzizdir.

### SORUŞUR

Əkmisən saçımda dən,
Əksilməyir, duman-çən.
Kirpiklərimi göynədən
Gözlərim səni soruşur.

Daş ömrümün daş ucunda,
Gilələnib yaş ucunda.
Qələmimin baş ucunda,
Sözlərim səni soruşur.

Bəs nədir bu giley deyil?
Pərişanam, külək deyil.
Sərsəm-sərsəm veyil-veyil,
İzlərim səni sörüşur.

Haqq qapımı yel açanda,
Yanağımı sel açanda.
Dua edib əl açanda,
Dizlərim səni soruşur.

### OYNAYIRAM

Donub özündə büsbütün,
Qanmaz olub asan çətin.
Külü dağılmış həsrətin,
Tozu ilə oynayıram.

Saxta gülüş dodağımda,
Çiçək solub budağımda.
Ömrümün xəzan çağımda,
Yazı ilə oynayıram.

Sinəmi sözə kökləyib,
Nisgili gözə kökləyib.
Mizrabı üzə kökləyib
Sazı ilə oynayıram.

### GÖZLƏYƏR

Zülmət gələr, sinə-sinə,
Avandına, ya tərsinə.
Əyləşib öz təknəsinə,
Gecələr səni gözləyər...

Yaşmanıb siyah yaşmağa,
Dərə keçib dağ aşmağa.
Susqun-susqun dolaşmağa,
Küçələr səni gözləyər...

Tab gətirər boran-qarda,
Anlayarsan, qalıb darda.
Özündən çox uzaqlarda,
Neçələr səni gözləyər...